# Azərbaycan Respublikasının Nazirlər Kabineti

N 160 **QƏRAR** Bakı şəhəri, 15 aprel 2016-cı il

## "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 3, maddə 195; 2001, N 10, maddə 663; 2003, N 6, maddə 342; 2006, N 5, maddələr 463, 472, N 9, maddə 822, N 10, maddə 902, N 11, maddə 989; 2008, N 2, maddələr 116, 125, N 8, maddə 782; 2009, N 6, maddə 491; 2010, N 8, maddə 764; 2011, N 5, maddə 454; 2012, N 2, maddə 185, N 5, maddə 486; 2013, N 5, maddə 574, N 6, maddə 747, N 8, maddə 1001; 2014, N 5, maddə 551, N 8, maddə 1020, N 12, maddə 1684; 2015, N 4, maddələr 462, 468, N 8, maddə 971; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 fevral tarixli 43 nömrəli qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin qərarla təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə" üzrə:

1.1. 4.3-1-ci maddənin birinci abzasında "icarəyə verilməsinə dair müqaviləni" sözləri "icarə və ya digər əşya hüquqlarına dair müqaviləni" sözləri ilə, ikinci abzasında "icarəyə verilməsinə dair müqavilə" sözləri isə "icarə və ya digər əşya hüquqlarına dair müqavilə" sözləri ilə əvəz edilsin;

1.2. 6.4-cü bənddə "icarə müqaviləsi" sözləri "icarə və ya digər əşya hüquqlarına dair müqavilə" sözləri ilə əvəz edilsin.

2. Həmin qərarla təsdiq edilmiş "Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması Qaydası"nın 2.7-ci bəndində "icarə müqaviləsi" sözləri "icarə və ya digər əşya hüquqlarına dair müqavilə" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***